## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

**UOT 316.33:34**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN FORMALAŞMASI

**Mələkxanım İSMAYILOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 21 sentyabr 2025; çapa qəbul edilmişdir: 30 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 21th of September, 2025; accepted: 30th of November, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər**: *Azərbaycan, sosial siyasət, sosial müdafiə, pensiya, sığorta, qanunvericilik*

**Giriş**

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı postsovet dövründə milli dövlət quruculuğunun hüquqi əsasını təşkil edən fundamental sənəd olmuşdur. Sənədin 11-ci maddəsində Azərbaycan xalqının demokratik idarəçilik modelinə və hüququn aliliyinə sadiqliyi bəyan olunmuş, 23-cü maddədə isə ölkədə iqtisadi fəaliyyətin əsas prinsipi kimi bazar münasibətləri və sahibkarlıq azadlığı təsbit edilmişdir. Bu normativ hüquqi akt, Azərbaycanın suverenliyinin bərpa olunmasından sonra ilk milli Konstitusiyanın hazırlanması üçün konseptual baza funksiyasını daşımışdır (4).

Müstəqillik dövrünün ilk illəri mürəkkəb geosiyasi və sosial-iqtisadi şəraitdə keçmişdir. Ermənistanla hərbi münaqişə nəticəsində yaranmış Dağlıq Qarabağ problemi, genişmiqyaslı hərbi əməliyyatlar, nəticədə isə yüz minlərlə qaçqın və məcburi köçkün əhalinin formalaşması ölkədə kəskin sosial və iqtisadi böhrana səbəb olmuşdur. Müharibə əlilləri, veteranlar və digər sosial həssas əhali qruplarının mövcudluğu dövlətin sosial siyasətə aktiv müdaxiləsini zəruri etmişdir (1, s. 60).

SSRİ-nin dağılması ilə mövcud olmuş mərkəzləşdirilmiş planlı iqtisadi model iflasa uğradığından, postsovet Azərbaycanında iqtisadi münasibətlərin yeni – liberal bazar mexanizmləri əsasında təşkili məqsədilə müvafiq hüquqi və institusional islahatların həyata keçirilməsi zərurəti meydana çıxmışdır. Halbuki sovet dövründə dövlətin sosial siyasəti çərçivəsində vətəndaşlara dövlət hesabına təhsil, tibbi xidmət və müxtəlif güzəştlər təqdim olunurdu. Yeni şəraitdə isə sosial müdafiə sistemi üçün müstəqil milli qanunvericilik bazası demək olar ki, yox idi. SSRİ qanunvericiliyinin hüquqi qüvvəsini itirməsi və müstəqil dövlətin normativ-hüquqi çərçivəsinin hələ tam formalaşmaması şəraitində sosial təminat sisteminin yenidən qurulması prosesi başlanmışdır (9, s. 164-165).

Beləliklə, Azərbaycan Respublikasında sosial dövlət modelinin formalaşması prosesi müstəqillik dövrünün ilk mərhələsində prioritet istiqamətlərdən biri olmuşdur. Bu proses həm hüquqi-normativ bazanın təkmilləşdirilməsini, həm də sosial-iqtisadi institutların yenidən təşkilini nəzərdə tutan kompleks tədbirləri əhatə etmişdir.

---

[*] *doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*e-mail:* melekxanim22@mail.ru
https://doi.org/10.30546/25194011.2025.14.5.3020

## 1. Sosial Müdafiə sistemində islahatlar

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət orqanları sosial təminatın strateji əhəmiyyətini dərk etsələr də, bu sahədə genişmiqyaslı və sistemli tədbirlərin həyata keçirilməsi üçün kifayət qədər maliyyə və inzibati resurslara malik deyildi. Sosial-iqtisadi böhran şəraitində dövlətin imkanları son dərəcə məhdud idi və bu səbəbdən sosial müdafiə tədbirləri əsasən minimum ehtiyacların qarşılanması ilə məhdudlaşırdı. Bu dövrdə sosial təminatın mühüm istiqamətlərindən biri olan məcburi köçkünlərin müdafiəsi sahəsində əsas yük beynəlxalq təşkilatların (BMT, UNHCR, UNICEF və digər donor qurumlarının) üzərinə düşmüşdür. Qeyd olunan qurumların humanitar dəstəyi nəticəsində məcburi köçkün əhaliyə ərzaq yardımı, ilkin tibbi xidmət və müvəqqəti sığınacaq təmin edilmişdir. Lakin bu yardımlar sistemli sosial müdafiə strukturlarının əvəzləyicisi kimi çıxış edə bilməmiş və problemin institusional əsaslarla həlli üçün dayanıqlı mexanizm yaratmamışdır.

Müstəqillikdən sonra sosial təminat sahəsində aparılan mühüm hüquqi islahatlardan biri də 23 sentyabr 1992-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış "Vətəndaşların pensiya təminatı haqqında" 305 nömrəli Qanunun qəbul edilməsi olmuşdur. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş sosial təminat hüququnun həyata keçirilməsinə zəmanət verən və dövlət tərəfindən idarə olunan vahid pensiya sisteminin hüquqi əsasını təşkil edən mühüm normativ hüquqi akt kimi çıxış edir.

Qanun vətəndaşlara yaşa görə, əmək qabiliyyətinin tam və ya qismən itirilməsi hallarında, habelə ailə başçısını itirdikdə maddi təminat hüququnu həyata keçirmək məqsədilə pensiya almaq hüququnu tanıyır. Bu hüquq yalnız Azərbaycan Respublikası vətəndaşlarına deyil, ölkə ərazisində daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də şamil olunur.

Həmçinin, əmək fəaliyyəti ilə məşğul olan müxtəlif əhali qruplarının – fəhlələrin, qulluqçuların, kənd təsərrüfatı istehsalçılarının, fərdi sahibkarların və digər əmək kateqoriyalarının bərabər hüquqlarla pensiya təminatı əldə etməsinə hüquqi zəmanət verilir. Bundan əlavə, əmək qabiliyyətinə malik olmayan şəxslər üçün sosial pensiya almaq hüququ da qanunvericilikdə öz əksini tapmışdır.

Bundan əlavə, Qanun inflyasiya və yaşayış minimumu kimi göstəricilərdə baş verən dəyişikliklər nəzərə alınmaqla pensiya məbləğlərinin müntəzəm şəkildə yenilənməsi mexanizmini təsbit etmişdir ki, bu da pensiyaçıların sosial müdafiəsinin davamlılığını təmin etməyə yönəlmiş mühüm addım kimi qiymətləndirilir.

Qanun dolanışıq xərclərində baş verən dəyişikliklərə uyğun olaraq pensiya məbləğlərinin müntəzəm şəkildə tənzimlənməsi yolu ilə pensiyaçıların sosial müdafiəsinə təminat verir.

Qanunla vətəndaşlara aşağıdakı pensiyalar təyin edilir:

***Əmək pensiyaları:***

yaşa (qocalığa) görə,

əlilliyə görə,

ailə başçısını itirməyə görə,

xidmət illərinə görə,

sosial pensiyalar (14, s.100-102).

Bundan əlavə, müəssisə və təşkilatların sosial sığorta ayırmalarına və onların məqsədyönlü xərclənməsinə nəzarətin gücləndirilməsi, həmçinin əhalinin sosial müdafiəsi sahəsindəki paralel strukturların ləğv edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 1992-ci il tarixli və 233 nömrəli "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında" Fərmanı qəbul edilmişdir. Bu Fərmanla Azərbaycan Respublikasının Pensiya Fondu və Azərbaycan Respublikasının

Sosial Sığorta Fondu bazasında Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu yaradılmışdır (2).

Həmçinin, Azərbaycan Respublikasının Prezidentinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması haqqında 10 dekabr 1992-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Sosial Təminat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Əmək və Sosial Məsələlər Komitəsi ləğv edilərək, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması ilə vahid nəzarət sistemi formalaşmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 fevral 1993-cü ildə 466 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında ilk əsasnamə təsdiq edilmişdir. Həmin əsasnamədə Nazirliyin fəaliyyət istiqamətləri, funksiyaları, vəzifələri, hüquqları əks olunmuşdur (5).

Yuxarıda qeyd edilən tədbirlərə baxmayaraq, həmin dövrdə son dərəcə mürəkkəb və çətin bir ictimai-siyasi və iqtisadi şərait mövcud idi. 1990-cı illərin əvvəllərində ölkədə dövlət idarəetmə sisteminin ciddi böhran yaşadığı, iqtisadiyyatın tənəzzülə uğradığı və sosial müdafiə strukturlarının fəaliyyət qabiliyyətinin zəiflədiyi müşahidə olunurdu. Belə bir şəraitdə, xüsusilə də Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi kimi qurumların funksional fəaliyyət göstərməsi mümkün deyildi.

## 2. Heydər Əliyevin hakimiyyət illərində sosial müdafiə sistemi

1993-cü ilin iyun ayında, ölkənin idarəçiliyinin çətin bir dövrə daxil olduğu və xalqın öz taleyini təhlükə altında gördüyü bir vaxtda, ümummilli lider Heydər Əliyev siyasi rəhbərliyə çağırılmış və ölkənin idarəçiliyini ona etibar etmişdir. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, idarəetmə sisteminin bərpası və iqtisadi-sosial sabitliyin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başlanmışdır.

Ulu öndər, dövlət müstəqilliyinin qorunub saxlanması ilə yanaşı, əhalinin sosial rifahının yaxşılaşdırılmasını da milli siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Xüsusilə, aztəminatlı təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi, sosial bərabərliyin təmin edilməsi və vətəndaşların layiqli həyat səviyyəsinə çatdırılması Heydər Əliyevin sosial siyasətinin əsas hədəflərindən biri olmuşdur. Onun rəhbərliyi altında həyata keçirilən yeni sosial-iqtisadi strategiya, həm sosial sahənin bərpasına, həm də uzunmüddətli inkişaf üçün möhkəm təməl yaradılmasına imkan vermişdir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1993-cü il tarixli 32 nömrəli Fərmanı ilə inflyasiya şəraitində əhalinin sosial müdafiəsini gücləndirmək və sosial gərginliyi azaltmaq məqsədilə 1993-cü il noyabrın 15-dən etibarən Azərbaycan Respublikasında əməyin ödənilməsinin minimum məbləği 900 manat müəyyən edilmiş, pensiya, təqaüd və müavinətlərin minimum məbləğləri əməyin ödənilməsinin minimum məbləğinə uyğunlaşdırılması nəzərdə tutulmuşdur (7).

Əhalinin sosial müdafiəsi ilə bağlı qanunvericilik bazasının güclənməsi istiqamətində atılan növbəti mühüm addımlardan biri ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş ölkənin ilk Konstitusiyası olmuşdur. Həmin Konstitusiya yeni ictimai-siyasi sistemin hüquqi əsaslarını müəyyənləşdirərək, dövlətin sosial-iqtisadi vəzifələrini dəqiq şəkildə təsbit etmişdir.

Konstitusiyada təsbit edilən əsas müddəalardan biri iqtisadiyyatın müxtəlif mülkiyyət formalarına əsaslanaraq xalqın sosial rifahının yaxşılaşdırılması məqsədinə xidmət etməsidir. Bu, dövlətin sosial müdafiə sahəsində siyasətinin bazar iqtisadiyyatının prinsipləri ilə uzlaşdırılmasına və Avropa dəyərlərinə inteqrasiyasına əsaslandığını göstərir.

Xüsusilə Konstitusiyanın 16-cı maddəsində Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin olunmasının əsas vəzifələrdən biri kimi göstərilməsi, sosial dövlət anlayışının milli qanunvericilikdə əsas yer tutduğunu sübut edir. Bu müddəa həm də göstərir ki, inkişaf etmiş dövlətlərdə olduğu kimi, Azərbaycanda da iqtisadi siyasət insanın maddi, sosial və mənəvi ehtiyaclarının qarşılanmasına yönəldilməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, sosial təminat vətəndaşların əsas hüquqlarından biri kimi tanınır. Sosial təminat anlayışı dedikdə, qanunvericilikdə nəzərdə tutulan hallarda – yaş həddinə çatdıqda, xəstəlik, əlillik, əmək qabiliyyətinin itirilməsi, ailə başçısının və ya iş yerinin itirilməsi və digər səbəblərlə çətin vəziyyətə düşmüş şəxslərə dövlət tərəfindən pensiya, müavinət verilməsi və sosial xidmətlərin göstərilməsi yolu ilə həyata keçirilən təminat tədbirləri başa düşülür (6).

Sosial müdafiə, vətəndaşların və ümumilikdə cəmiyyət üzvlərinin, müxtəlif sosial qrupların düçar olduqları köməksiz vəziyyətlərdən qorunmasını və ya bu vəziyyətlərdən çıxarılmasını təmin etməyi əsas məqsəd kimi qarşıya qoyur. Bu səbəbdən, sosial müdafiə preventiv (qabaqlayıcı) funksiyalarla təchiz olunmuşdur.

Sosial müdafiə ərzaq yardımı, kommunal güzəştlər və digər təbii yardımların təqdim edilməsini, əmək pensiyaları və müavinətlər kimi pul ödənişlərini, həmçinin sosial müdafiəyə ehtiyacı olan şəxslərə müxtəlif xidmətlərin göstərilməsini əhatə edir (15, s.23).

Beləliklə, sosial müdafiə – vətəndaşlardan asılı olmayan və ya az asılı olan, sosial təhlükəli vəziyyətlərin qarşısının alınmasına, onların yüngülləşdirilməsinə və nəticələrinin aradan qaldırılmasına yönəldilmiş tədbirlər sistemini ifadə edir (17).

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi sosial siyasət yalnız iqtisadi inkişafın nəticələrinə deyil, həm də hüquqi-normativ bazaya əsaslanaraq sosial ədalətin təmin olunmasına və əhalinin bütün təbəqələrinin sosial rifahının qorunmasına xidmət etmişdir. Bu siyasət, dayanıqlı və məqsədyönlü bir strategiya olmaqla, ölkədə güclü və inklüziv sosial müdafiə sisteminin qurulmasına şərait yaratmışdır (8).

Əhalinin sosial müdafiəsi sahəsində atılan mühüm addımlardan biri "Sosial sığorta haqqında" 18 fevral 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi olmuşdur. Həmin qanun Azərbaycan Respublikasında sosial sığorta sahəsində münasibətləri tənzimləyir, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Qanuna əsasən sosial sığorta hadisəsinə aşağıdakılar daxildir:

pensiya yaşına çatmaq;

əlillik;

ailə başçısını itirmək;

əmək qabiliyyətinin müvəqqəti itirilməsi;

hamiləlik və doğum;

uşağın anadan olması;

uşağa qulluq;

ölüm;

sanatoriya-kurort müalicəsi zərurəti (13, s. 172-174).

Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə təsdiq edilmişdir. Həmin Əsasnaməyə əsasən Nazirlik əhalinin sosial müdafiəsi, əməyin mühafizəsi, əməyin ödənilməsi və əmək münasibətləri, əmək ehtiyatlarından istifadə, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiya problemləri sahəsində dövlət siyasətini və idarəetmə funksiyalarını icra edən mərkəzi icra hakimiyyəti orqanı olaraq müəyyən edilmişdir. Əsasnamənin 2-ci hissəsində Nazirliyin əsas və-

zifələri aşağıdakı kimi göstərilmişdir:

Əmək, pensiya təminatı, sosial müdafiə, demoqrafiya və miqrasiya sahəsində dövlət siyasətini hazırlamaq və həyata keçirmək;

Əmək qabiliyyətli əhalinin işgüzarlıq və təşəbbüskarlığının artırılması üçün zəruri şərait yaratmaq, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatlarda çalışan işçilərin əmək və sosial hüquqlarının qorunmasını təmin etmək;

İşsizliyin səviyyəsinin azaldılmasına, əmək bazarında zəif rəqabətli əhali qruplarının, xüsusilə gənclərin, çoxuşaqlı qadınların, qaçqın və məcburi köçkünlərin, əlillərin, şəhid ailəsi üzvlərinin, sərbəstləşdirilmiş işçilərin məşğulluğuna yönəldilmiş siyasəti həyata keçirmək;

Müvafiq icra hakimiyyəti orqanları, dövlət və qeyri-dövlət müəssisələri ilə birgə yeni iş yerlərinin yaradılmasına yönəldilmiş tədbirlər hazırlamaq, əmək ehtiyatlarını bazar şəraitinə uyğunlaşdırmaq məqsədi ilə peşə hazırlığı mexanizmini təkmilləşdirmək;

Əhalinin sosial müdafiəsi sahəsində qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədi ilə təkliflər hazırlayıb müvafiq orqanlara təqdim etmək;

Əhalinin aztəminatlı təbəqələrinə dövlət yardımının tənzimlənməsi üzrə təkliflər hazırlamaq, tənha ahıl vətəndaşlara, əlillərə sosial-məişət xidmətini təşkil etmək;

Demoqrafiya, əmək və sosial müdafiə məsələləri üzrə elmi-tədqiqat və beynəlxalq əməkdaşlıq sahəsində işləri əlaqələndirmək;

Tibbi-sosial ekspertizanı, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını təşkil etmək, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların protez-ortopedik vasitələrlə təmin olunmasına köməklik göstərmək;

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda əməyin mühafizəsi, əmək şəraiti, əməyin ödənilməsi, əmək münasibətləri, əməyin gigiyenası, əhalinin məşğulluğu, miqrasiya, sosial sığorta sahəsində qanunvericilik aktlarının icrasının təmin olunmasına dövlət nəzarətini həyata keçirmək (17).

Sosial müdafiə sahəsində atılan önəmli addımlardan biri də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən 17 iyul 2001-ci il tarixli 767 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"dır. Konsepsiya əhalinin sosial müdafiəsini gücləndirmək, vətəndaşların pensiya təminatını yaxşılaşdırmaq, pensiya təminatı sisteminin idarə olunmasını, pensiyaların müəyyən olunması və əhaliyə verilməsi mexanizmini təkmilləşdirmək məqsədi daşıyır (3).

Azərbaycan Respublikasında pensiya islahatı bu sahədə yeni hüquqi bazanın yaradılmasını, sosial sığorta haqlarının yığılmasının təkmilləşdirilməsini, pensiya ödənişlərinin ünvanlılığını və onların vaxtında vətəndaşlara çatdırılmasını təmin edən mexanizmin yaradılmasını, pensiya sistemində idarəetmə orqanlarının strukturunun yenidən qurulmasını istiqamətində işlərin aparılmasını nəzərdə tutulurdu. Həmin konsepsiyanın məqsəd və prinsipləri aşağıda qeyd edilmişdir:

Əhalinin sosial müdafiəsini gücləndirmək və onlara layiqli həyat səviyəsini təmin etmək;

Pensiya təminatı sistemini bazar iqtisadiyyatına uyğunlaşdırmaq və əhalinin rifah səviyyəsini artırmaq;

Pensiya və müavinətlərin ödənilməsində və idarəolunmasında sistemli şəkildə koordinasiya etmək;

Sosial sığorta və ödənişlər arasındakı əlaqəni uyğunlaşdırmaq;

Məcburi sosial sığorta ödənişlərinin bütün işəgötürən və işçilər tərəfindən ödənilməsi;

Vətəndaşların minimum yaşayış səviyyəsi ilə pensiyaların uyğunlaşdırılması;

Sosial təminat sisteminin idarə olunmasında aşkarlığı təmin etmək üçün ictimai

nəzarətin aparılması;

Məcburi sosial sığorta ödənişlərinin ödənildiyi zaman işəgötürən və işçilər arasındakı tariflərin mütənasibliyinin gözlənilməsi.

Konsepsiyada pensiya islahatının 2001-2005-ci illəri əhatə etməklə mərhələlərlə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Birinci mərhələdə pensiya təminatının qanunvericilik bazasının yaradılması nəzərdə tutulur. Bununla bağlı 2001-ci ildən başlayaraq "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası qanununun yeni redaksiyada işlənib hazırlanması, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası qanununa dəyişiklik və əlavələrin edilməsi, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası qanununun işlənib hazırlanması, habelə qeyri-dövlət pensiya fondları haqqında qanunvericilik aktlarının hazırlanıb təqdim olunması nəzərdə tutulur.

Pensiya islahatının ikinci mərhələsində pensiya sisteminin əsasını təşkil edən fərdi uçotun yaradılması üzrə işlərin aparılması vacib olmuşdur. Bu mərhələdə pensiya hesablamaları, vəsaitin yığımı və pensiyaların müəyyənləşdirilməsi sahəsində avtomatlaşdırılmış sistemin hazırlanması və tətbiqi təmin edilməli idi.

Üçüncü mərhələdə fərdi uçotun yaradılması ilə bağlı, əmək qabiliyyətli işçilərin gəlirləri və pensiyaların təyin edilməsi üçün zəruri olan digər göstəricilər barədə məlumat toplanması tələb olunurdu.

Dördüncü mərhələdə isə pensiyaların fərdi uçot sənədləri əsasında hesablanmasına başlanmalı idi (3).

Konsepsiyanın əsas mahiyyəti sığorta-pensiya və sosial yardım sistemlərinin ayrılması, həmçinin sığorta münasibətlərinə əsaslanaraq pensiya sisteminin qurulmasıdır. Bu dəyişikliklərin əsas elementi isə sosial sığorta haqlarının fərdi uçotuna əsaslanan avtomatlaşdırılmış sığorta-pensiya sisteminin yaradılmasıdır. Fərdi uçot sisteminin tətbiqi ilə əlaqəli əsas məqsəd, ödənilən məcburi dövlət sosial sığorta haqqı ilə pensiya məbləği arasında birbaşa əlaqənin təmini olmuşdur.

Sosial müdafiə sahəsində qanunvericilik bazasının yaradılmasında mühüm hadisələrdən biri Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2002-ci il tarixli 781 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu (bundan sonra – Fond) haqqında Əsasnamənin qəbul edilməsi olmuşdur. Həmin Əsasnaməyə əsasən Fondun Azərbaycan Respublikasında məcburi dövlət sosial sığortası, əmək pensiyaları sahəsində idarəetməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olduğu qeyd edilmişdir. Həmçinin Əsasnamənin 2-ci hissəsində Fondun əsas vəzifələri qeyd edilmişdir, onlar aşağıdakı kimidir:

Dövlətin sosial sığorta siyasətinin istiqamətlərinə dair təkliflərin hazırlanması və bu siyasətin həyata keçirilməsində iştirak etmək;

Fondun büdcə layihəsini hazırlamaq və təsdiq olunmuş büdcənin icrasını təmin etmək;

Təşkilati–hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün hüquqi şəxslərdən, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən (sığorta edilənlərdən), eləcə də sığorta olunanlardan qanunvericiliklə müəyyən edilmiş miqdarda məcburi dövlət sığorta haqlarının toplanmasını təşkil etmək;

Öz səlahiyyətləri daxilində məcburi dövlət sosial sığortası, pensiyalar və pensiyalara əlavə olunan müavinətlər sahəsində qanunvericilik aktlarının tələblərinin yerinə yetirilməsinə və vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarəti həyata keçirmək;

Məcburi sosial sığorta vəsaiti və dövlət büdcəsi vəsaiti hesabına ölkədə bütün pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin maliyyələşdirilməsini həyata keçirmək;

Məcburi dövlət sosial sığorta vəsaiti hesabına aşağıdakı xərclərin maliyyələşdirilməsini təmin etmək:

"Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq əmək (sosial sığorta) pensiyaları;

könüllü (əlavə) sosial sığorta əsasında dövlət pensiyalarına əlavələr;

əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət (qanunvericilikdə müəyyən olunmuş dövr üçün);

hamiləliyə və doğuma görə müavinət;

uşağın anadan olmasına görə birdəfəlik müavinət;

qanunvericiliklə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət:

sığorta olunanların sanatoriya-kurort müalicəsi üçün xərclərinin tam və ya qismən ödənilməsi;

məşğulluq tədbirlərinin həyata keçirilməsi;

əlillərin sosial müdafiəsi tədbirlərinin həyata keçirilməsi;

dəfn üçün müavinət;

qanunvericilikdə nəzərdə tutulmuş digər xərclər.

Dövlət büdcəsindən ayrılmalar hesabına (transfer) sosial pensiyaların, aztəminatlı əhaliyə müavinətlərin və qanunvericilikdə nəzərdə tutulmuş digər müavinətlərin maliyyələşdirilməsini həyata keçirmək;

Qanunvericilik çərçivəsində özünün müntəzəm ödəmə qabiliyyətini təmin edən tədbirlər görmək;

Həmçinin qanunla nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək (17).

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" 4 avqust 2003-cü il tarixli 908 nömrəli və "Pensiyaların artırılması haqqında" 4 avqust 2003-cü il tarixli 909 nömrəli Fərmanlar da təqaüdçülərin sosial müdafiəsində mühüm rol oynamışdır. Belə ki, həmin Fərmanlarla təqaüdçülərin yaşayış səviyyəsini və rifah halının yüksəldilməsini təmin etmək istiqamətində önəmli addımlar atılmışdır.

Azərbaycan Respublikasının Pensiya İslahatı Konsepsiyasına uyğun olaraq, dövlət sosial sığorta sistemində islahatları sürətləndirmək, idarəetmə proseslərini təkmilləşdirmək və pensiyaların, eləcə də onlara əlavə edilən müavinətlərin müəyyən edilməsi və maliyyələşdirilməsini vahid dövlət pensiya sistemində birləşdirmək məqsədilə, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli qurumlarının pensiya və müavinətlərin təyin edilməsi, ödənişlərin həyata keçirilməsi və maliyyələşdirilməsinə dair bir sıra funksiyaları Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna verilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2002-ci il tarixli 781 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə"yə müəyyən dəyişiklik və əlavələr edilmişdir (10, s.178).

Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən sosial sahədə dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir və əhalinin sosial müdafiəsi sistemi təkmilləşdirilir.

## 3. İlham Əliyevin hakimiyyət illərində sosial müdafiə sistemi

Sosial müdafiə sferasında "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ölkəmizdə yeni sosial müdafiə sisteminin yaradılmasının əsası hesab olunur. Həmin qanunlar sosial müdafiəyə ehtiyacı olan həssas əhali qrupları, o cümlədən aztəminatlı əhalinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun sosial müdafiəsinin yeni formada tətbiq edilməsini və həyata keçirilməsini təmin edir (15, s. 22).

Prezident İlham Əliyevin aztəminatlı vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə 21 oktyabr 2005-ci il tarixdə "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Bu qanun ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzimləyir. Ötən dövr ərzində ünvanlı dövlət sosial yardımı mexanizminin təkmilləşdirilməsi məqsədi ilə müvafiq qanunvericiliyə bir neçə dəfə əlavə və dəyişikliklər edilmiş, nəticədə ünvanlı yardımın əhatə dairəsi genişləndirilməklə, yoxsul ailələrin bu yardım növündən yararlanmaq imkanları daha da artırılmış, bu sahədə sənədləşdirmə qaydaları sadələşdirilmişdir (11, s. 135-136).

Ölkə ərazisində əmək pensiyası hüququnun əldə edilməsi şərtlərini, bu hüquqların reallaşdırılması prosedurlarını və pensiya təminatı sisteminin hüquqi-normativ əsaslarını müəyyən edən "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu 2006-cı il fevralın 7-də qəbul olunmuşdur (12, s. 95-96).

Bu qanunun qəbul edilməsi nəticəsində 1992-ci ildən qüvvədə olan və əsasən həmrəylik prinsipinə əsaslanan pensiya sisteminin modernləşdirilərək çoxpilləli modelə keçidinin hüquqi bazası yaradılmışdır ki, bu da Avropa və digər inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun islahatların aparılmasına şərait yaratmışdır.

Tətbiq müddəti ərzində əldə olunan təcrübə göstərmişdir ki, qanun əmək pensiyalarının məbləğinin artmasına səbəb olmaqla yanaşı, vətəndaşların sosial sığorta haqlarının ödənilməsində daha fəal iştirakını təşviq etmişdir. Bununla yanaşı, "Əmək pensiyaları haqqında" qanun çərçivəsində sosial sığorta prinsiplərinə əsaslanan əmək pensiyaları ilə dövlət büdcəsinin vəsaiti hesabına verilən sosial müavinətlərin fərqləndirilməsi təmin olunmuş, bu da ünvanlı sosial müdafiə sisteminin təşəkkül tapmasına zəmin yaratmışdır (16, s. 52).

**Nəticə**

Bu məqalə Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkədə mövcud olan sosial-iqtisadi böhran şəraitində həyata keçirilən sosial islahatların araşdırılması və Azərbaycan Respublikasında əhalinin sosial müdafiə sisteminin formalaşmasının təhlili baxımından əhəmiyyət daşıyır. Heydər Əliyevin hakimiyyətə gəlməsi və aparılan sosial siyasət əhalinin rifah halının yaxşılaşdırılmasına yönəlmişdir. Həmçinin 2003-cü ildən ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində əhalinin sosial müdafiəsinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.

## ƏDƏBİYYAT


1. "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah" mövzusunda beynəlxalq elmi-praktik konfrans materialları. Bakı, 2019, 423 s.
2. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (//https:/e-qanun.az/framework/7782).
3. Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (//https:/e-qanun.az/framework/4412).
4. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. (//https:/e-qanun.az/framework/6693).
5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (//https:/e-qanun.az/ frame work/7936).
6. Azərbaycan Respublikasının Konstitusiyası. (//https:/e-qanun.az/framework/897).

7. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (// https://e-qanun.az/framework/8696).
8. Əhalinin sosial müdafiəsinin mükəmməl modelini yaradan lider. (//https://www.anl.az/down/ meqale/ azerbaycan/2011/may/174342.html).
9. Əliyev M. Tarix və onun problemləri jurnalı. 2003, s. 158-168. (https://tarixveonun problem leri. az/arxiv.html).
10. ƏşrəfovaR. Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi. Bakı: Elm, 2007, 260 s.
11. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 1305, vv. 135-136.
12. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 1360, vv. 95-96.
13. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 472, vv. 172-174.
14. Milli Məclisin arxivi, Fond 2941, Siyahı 1, İş 56, vv. 100-102.
15. Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı MBM, 2012, 408 s.
16. Rzaquliyeva S., Bünyadov Z., Muradova K. Azərbaycan Respublikasinda Pensiya İslahatı Konsepsiyasının mahiyyəti və əsas müddəaları, Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi, cild 13, № 3, 2017, səh. 51-55.
17. Sosial təminat və sosial müdafiə. (//https://meqamm.webnode.page/ meqaleler/sosial%20t% C9%99minat %20v%C9%99%20sosial%20mudafi%C9%99/).

***Резюме***

***Мелекханым Исмайылова***

***Формирование системы социальной защиты населения в Азербайджанской Республике***

Данная статья посвящена анализу мер, предпринятых в Азербайджанской Республике по формированию и развитию системы социальной защиты населения. После восстановления независимости одной из ключевых задач государства стало построение эффективных механизмов, способных обеспечить достойный уровень жизни и социальную справедливость для всех слоёв населения. Однако в начале 1990-х годов Азербайджан столкнулся с глубоким социально-экономическим кризисом, сопровождавшимся массовой безработицей, инфляцией и снижением уровня доходов населения. Эти обстоятельства серьёзно затрудняли реализацию социальной политики. Несмотря на то, что в этот период были приняты некоторые законодательные акты в сфере социальной защиты, отсутствовали необходимые экономические и институциональные ресурсы для их полноценного применения. Ситуация начала меняться с возвращением к власти национального лидера Гейдара Алиева. Под его руководством социальная защита стала одним из приоритетных направлений государственной политики. Были приняты важные нормативно-правовые документы, заложены основы системы обязательного социального страхования, начата реформа пенсионного обеспечения. С 1991 по 2006 годы правовая база социальной политики значительно укрепилась. Расширился спектр государственных программ по поддержке малообеспеченных семей, инвалидов, пожилых людей и других уязвимых групп. Уделялось внимание также вопросам занятости, профессиональной подготовки и реабилитации. Создавались новые государственные структуры и службы социальной помощи. В результате реформ был достигнут определённый прогресс в обеспечении социальной стабильности, снижении уровня бедности и укреплении доверия населения к институтам государства. Опыт Азербайджана в эти годы демонстрирует поэтапное и устойчивое развитие социальной политики, адаптированной к реалиям переходного периода.

**Ключевые слова:** *Азербайджан, социальная политика, социальная защита, пенсия, страхование, законодательство*

***Summary***

***Melekkhanim Ismayilova***

***The Formation of the Social Protection System in the Republic of Azerbaijan***

This article is dedicated to analyzing the measures taken in the Republic of Azerbaijan for the establishment and development of the social protection system for the population. After regaining independence, one of the main challenges facing the country was to create effective mechanisms to ensure the social welfare of its citizens. However, in the early 1990s, a severe socio-economic crisis, widespread unemployment, and a decline in the population's purchasing power posed serious difficulties for social protection. Although some legislative acts were adopted during this period, the necessary economic and institutional frameworks for their effective implementation were lacking. Following the return to power of the national leader Heydar Aliyev, social protection policy became a state priority. Important normative-legal documents were adopted to strengthen the protection of socially vulnerable groups, and social insurance, pension provision, and social assistance mechanisms were gradually improved. Significant steps were taken in regulating labor relations and protecting people with disabilities, low-income families, and other vulnerable groups. Between 1991 and 2006, the legal foundation of the social protection system was steadily strengthened, and the scope of state programs expanded. Consequently, notable progress was made in improving living conditions, maintaining social stability, and enhancing the state's social functions. This article provides an analytical overview of the nature, implementation, and significance of these reforms.

**Key words:** *Azerbaijan, social policy, social protection, pension, insurance, legislation*

Redaksiya heyətinin üzvü f.ü.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.